Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# AXCP: “Zamin Salayevə 30 sutka həbs verilib”

1 dəqiqə öncə




Zamin Salayev

Bir ay öncə həbsdən azadlığa buraxılan Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) fəalı **Zamin Salayev**in sentyabrın 4-də 30 sutka inzibati qaydada həbs edildiyi bildirilir. AXCP-nin ayrı-ayrı fəallarının yaydığı məlumata görə, bununla bağlı qərar günün ikinci yarısı Salyan rayon Məhkəməsində verilib:

“İlkin məlumata görə, O,İnzibati Xətalar Məcəlləsinin 510 (Xırda xuliqanlıq və 535 (Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmamama) maddələri ilə günahlandırılıb”

Hələlik, bu məlumatı Salyan rayon Məhkəməsinin özündən dəqiqləşdirmək mümkün olmayıb.

+++

Saatlar öncə Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) fəalı **Zamin Salayev**in yenidən saxlandığı deyiliridi.

Bu barədə ailəsinə istinadla onun müxalif düşərgədən olan dostları məlumat yaymışdı.Ailəsinin vurğulamasına görə, Salayevin hal-hazırda harada olduğunu dəqiqləşdirə bilmirlər.

Məsələyə rəsmi qurumlardan münasibət almaq mümkün olmamışdı.

7 avqust

## Zamin Salayev azadlığa çıxıb

Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) fəalı **Zamin (Əlizamin) Salayev** 3 il 6 aydan sonra azadlığa çıxıb. Bu barədə siyasi fəallar sosial şəbəkədə paylaşım ediblər.

Salayev 2023-cü il mayın 22-də Qaradağ rayon Məhkəməsinin hökmü ilə 4 il müddətinə azadlıqdan məhrum edilmişdi. O, həmin il fevralın 7-də saxlanılıb və Cinayət Məcəlləsinin 221.3-cü (silah və ya silah qismində əşya tətbiq etməklə xuliqanlıq) maddəsi ilə ittiham olunub. AXCP fəalı ittihamı qəbul etmirdi.

## Xatırlatma

AXCP-nin Salyan şöbəsinin sədri Salayev bundan əvvəl — 2020-ci ilin aprelində Salyan rayon Məhkəməsinin hökmü ilə 2 il 3 ay müddətinə həbs cəzası almışdı. Salayev həbsindən bir müddət əvvəl sosial şəbəkələrdə Salyan rayon Polis Şöbəsinin əməkdaşı Həmzə Əzizovla mübahisəsinin videosunu paylaşmışdı. Həmin videoda AXCP üzvü polis əməkdaşını rayonda yaşayan bir qadına təcavüzdə ittiham edirdi. Video yayımlandıqdan sonra polis əməkdaşı Salyan rayon Məhkəməsində xüsusi ittiham qaydasında iddia qaldıraraq onun həbsini tələb etmişdi.

Videoda adı çəkilən qadın isə Əzizova bıçaqla xəsarət yetirdiyinə görə 7 il həbs cəzasına məhkum edilib. O, polisin zorakı hərəkətlərindən müdafiə olunmaq üçün bu addımı atdığını bildirsə də, polis əməkdaşı onun dediklərinin həqiqəti əks etdirmədiyini söyləyib.

Salayev 2022-ci il yanvarın 19-da — Amnistiya Aktı ilə əlaqədar cəza müddətinin başa çatmasına bir neçə ay qalmış azadlığa buraxılmışdı.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur